# Qisas və Ədalət

yazan

Altel Çağla

altelchagla.wixsite.com/official

Logline: Gənc tələbə qadın olan Xalsa qanuni yolla ədalət tapa bilmədikdə, qardaşına qarşı ədalətsizlik törədən və sistemdən istifadə edərək cəzadan qaçan güc sahibi adamları öz üsulu ilə cəzalandırır.

FADE IN:

İNT. AİLƏ EVİ - OTURAQ OTAĞI - SƏHƏR

XALSA və qardaşı ÜMİDin uşaqlıqdan ANA və ATAsı ilə birlikdə yaxın zamanlardakı vaxta qədər olan şəkillərini görürük. Sonra da Ana və Atanın qara lentli portretləri və ən sonda qardaşın diplomu və ikisnin mükafatları arasında bacı-qardaşın sadəcə ikisi olan şəkillər. Müşayiət edən musiqi də bu zamanlara və hadisələrə görə dəyişir.

İNT. AİLƏ EVİ - EVİN GİRİŞ HİSSƏSİ - SƏHƏR

İşıqlı köşədə qipsofil çiçəkləri və ağ qızılgüllü güldan da diqqət çəkir.

ÜMİD (30) sadə amma səliqəli günlük tərzdə geyimdə tələsik şəkildə gəlir, dayanıb çantasını yoxlayır.

ÜMİD
(çantanı yoxlamağa davam edərkən)
Xalsa, harda qaldın?!

Ümid ciblərini yoxlamağa keçəndə XALSA (20-lərində, çalışqan tələbə) demək olar ki, yox qədərində makiyaj və səliqəli ciddi tələbə geyimində tələsik gəlir.

XALSA
Gəldim, gəldim!

ÜMİD
Bir də belə geciksən səni götürmədən gedəcəm.

Ümid artıq qapıdan çıxmışdır.

XALSA
Yaxşı da! Bilirsən ki, imtahanlar ard-ardadı-
(bir anlıq donur)
Ay! Telefon yaddan çıxdı!

Xalsa qaçaraq otaqdan çıxır. Bu zaman ÜMİDİN İŞ YOLDAŞI olan qadından zəng gəlir.

ÜMİD
Xeyir olsun.

ÜMİDİN İŞ YOLDAŞI (V.O)
O çoxdandır gözlədiyin şəxs gəlib indi buradadır.

ÜMİD
(həyəcanlnır)
Nə danışırsan?! Gəldim, gəldim! Nə qədər tuta bilirsənsə tut, getməsin!

EKST. AİLƏ EVİ - EVİN HƏYƏTİ - DAVAM

Ümid maşına qaçıb işə salır.

Xalsa telefonu ilə geri qayıdanda Ümid artıq getmişdir.

İNT. AİLƏ EVİ - OTURAQ OTAĞI - AXŞAM ÜSTÜ

Otağın işıqları zəifdir. Yalnız bir neçə lampa yanır ki, bu da atmosferi daha da ağırlaşdırır.

Ümid otağa girdiyində Xalsa qolları sinəsində düyümlü acıqlı və küskün şəkildə oturmuşdur.

Ümid yavaşca bacısının yanında oturur. Bir müddət susurlar.

XALSA
(acıqlı tonda)
Nə oldu? Heç olmasa çatdırdın?

ÜMİD
(peşman tonda)
Yox, ay bacı. Heç vaxt tıxac olmayan yerdə tıxaca düşdüm, çatmadım. Ahın tutdu.

XALSA
(oynaq tonda)
Bu da sənə dərs olar.

ÜMİD
(bacısına qatılaraq)
Bəli! Elədir ki var!

İkisi də gülməyə başlayır.

ÜMİD (CONT'D)
Yemək yemisən?

XALSA
Hə, unidə yedim.

ÜMİD
Onda gedəkmi?

XALSA
(həvəslə durur)
Gedək.

EKST. PARK - AXŞAM ÜSTÜ

Ümid Xalsaya və özünə qəhvə alır. Xalsa və Ümid həmişə altında oturduqları böyük ağacın altına keçirlər.

Ağacın kölgəsində, Günəş batmağa başladığı zaman, sakit bir atmosferdə otururlar. Ağacın yarpaqları yavaşca səs çıxararaq hərəkət edir, axşamın sakitliyi hər tərəfdən hiss edilir.

ÜMİD
İmtahanlar yaman yorur səni.

XALSA
Hükuq fakültəsi tələbəsiyəm də. Sən də mətbuatda yorulursan elə bilmə ki, görmürəm.

ÜMİD
Bu üstündə çalışdığım iş alınsa-

XALSA VƏ ÜMİD
(birlikdə)
Bu məqalə partladacaq.

XALSA
(jestlərlə birlikdə yavaş hərəkətlə)
Bum!...

Xalsa gülür. Ümid də gülməyini tumağa çalışar amma sonda o da gülür. Ümid Xalsanın başına sığal çəkir.

ÜMİD
Ay səni, səni.

İNT. REDAKSİYA - ÜMİDİN OTAĞI - GÜNDÜZ

Ümid adəti üzərə pür diqqət işinin üzərində çalışmaqdadır. Masasının üstündə nə vaxtır içilməyi gözləyən qəhvə hələ də ağzına qədər doludur, toxunulmamışdır. Ümid gözünü işdən ayırmayaraq əlini uzadıb qəhvəndən içir və qəhvənin soyuq olduğunu analyınca üzünü büzür. Yenə də qəhvəni sürətlə bir dəfəyə içib işinə qayıdır.

Telefonun alarm zəngi çalanda həfifcə diksinir. Gözlərini qısıb ora-bura çevrilib zəngi niyə qoyduğunu xatırlamağa çalışır və yadına salır. Zireh şəkildə telefonu əlinə alıb qamətini düzəldir. Zəng edtiyi şəxs onun İNFORMATORudur.

ÜMİD
Nəsə bir təzəlik var?

İNFORMATOR (V.O)
Bu yaxınlarda yeni sifariş almalıyıq. İki gün sonra elə bu vaxtda mənə yenə zəng edərsiniz, Mənsur bəy.

ÜMİD
Aydındır.

Ümid telefonu kənara qoyur.

ÜMİD (CONT'D)
Mənsur bəy, hıh... Gərək başqa ad fikirləşərdim. Bu ad əsəbimə toxunmağa başlayır.

Redaksiya telefonu çalır. "Baş Redaktor" yazan hissənin işığı yanmaqdadır.

ÜMİD (CONT'D)
Buyurun, eşidirəm... Baş üstə. Düz yarım saat sonra sizin otaqda olacağam.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - DAVAM

Otaq çox sayda mükafatlar və Baş Redaktorun nüfuzlu şəxslərlə olan fotoları ilə doludur. Lakin onların hamısı artıq köhnə sayılır və yaxın illərə aid olanı yoxdur.

BAŞ REDAKTOR (50-lərində) masa arxasında əyləşmiş Zoom vasitəsi ilə özündən statusca daha böyük olduğunu hiss etdirən ŞƏXSLƏ söhbət etməkdədir.

ŞƏXS
Əlbəttə, siz baş redaktor olaraq vaxtı ilə çox iş görmüsünüz.

"Vaxtı ilə" sözü Baş Redaktoru tutur. Amma o bunu gizlətməyə çalışır.

ŞƏXS (CONT'D)
Mən yenə də sizdən yeni və maraqlı mövzular gözləyirəm. Sizin qəzetiniz yetərincə oxunaqlıdır.
(MORE)

ŞƏXS (CONT'D)
Daha da yaxşısına qadir olduğunuzu bilirəm. Getməliyəm. İcazənizlə.

BAŞ REDOKTOR
Nə demək, icazə sizindir.

İNT. REDAKSİYA - HOL - DAVAM

Ümid sevincək şəkildə BAŞQA İŞ YOLDAŞInın yanından keçir.

BAŞQA İŞ YOLDAŞI
Kumirin çağırıb deyəsən, kefin sazdı.

Ümid iki əllə barmaqlarla "atəş açır" və iş yoldaşı güldükdən sonra yoluna davam edir.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - DAVAM

Ümid ehmalca qapını döyür və icazə gəldikdən sonra içəri daxil olur. Baş Redaktor əli ilə ona oturmasına işrət edir.

BAŞ REDAKTOR
(qısa səssizlikdən sonra)
Hə, dəliqanlı. De, görüm o hamıdan bərk-bərk gizlətdiyin bomba xəbər nə yerdədir.

Ümid bir anlıq tərəddüt etsə də sonunda bir az açılır.

ÜMİD
(nəzakətlə)
Özünüz də dediniz, gizlidir...

Baş Redaktor ona baxış atır.

BAŞ REDAKTOR
Belə gizlilik üçün gərək mənbən də möhkəm olsun.

Baş Redoktor onu süzdükdən sonra arxaya söykənib barmaq ucu ilə masanın tıqqıldadır.

BAŞ REDAKTOR (CONT'D)
Yaxşı, yaxşı. Amma özün də bilirsən tarixlər də var. Nə vaxt hazır olacaq?

ÜMİD
Həftənin sonuna qədər hər şey tamamlanacaq.

BAŞ REDAKTOR
(başı ilə təsdiqləyərək, üzündə yavaş-yavaş təbəssüm yaranır)
Əla. Dörd gözlə gözləyəcəyəm. Məni məyus etməyəcəyinə inanıram.

Ümid otaqdan çıxan kimi, baş redaktorun təbəssümü yox olur və yerini hiyləgər bir baxış alır.

İNT. UNİVERSİTET - HÜQUQ FAKÜLTƏSİ - HOL

Böyük pəncərələrdən təbii işıq düşən geniş dəhliz. Tələbələr kitablar qucaqda, pıçıltı ilə danışaraq dərslər arasında tələsirlər.

Xalsa həmişəki kimi səliqəli və formal şəkildə geyimdə PROFESSORu (60 yaşlarında, müdrik, dəstəkçi) ilə həvəslə müzakirə aparırlar.

XALSA
Qanun həmişə zərər çəkmişin tərəfində olmalıdır. Məgər məqsəd bu deyilmi? Özlərini qorumaq qüvvəsində olmayanları qorumaq.

PROFESSOR
İdealda, elədir. Amma qanunun tərəfsizliyi bəzən ədaləti ört-basdır edə bilir. Bu tarazlığı təmin etmək sizin kimilərinizdən asılıdır.

Bu vaxt PİS PROFESSOR (50 yaşlarında, özündənrazı, patriarxal) yaxınlıqda dayanır, onları müşahidə edir. Divara söykənmiş, qolları çarpazlanmış, təhqiramiz bir ifadə ilə söhbətə müdaxilə edir.

PİS PROFESSOR
Tarazlıq bir yana, amma idealizm təhlükəli şeydir. Xüsusilə də təcrübəsiz tərəfdən gələndə.
(Əda ilə)
Gələcək hüquqşünaslarda belə həssaslıq görmək sevindiricidir.

Xalsa gərilir lakin özünü itirmir.

XALSA
(Sakit)
Həssaslıqla ədalət bir-birinə zidd deyil. Əslində, insanlığı anlamaq qanunun tətbiqində vacibdir.

PİS PROFESSOR
(Gülüşlə)
Hah! Həssaslıq tərəfkeşliyə səbəb olmurmu? Bu səbəbdən qadınlar... Demək istəyirəm, emosiyalar əqli bulandırır.

Dəhliz sakitləşir, bir neçə tələbə onların tərəfinə baxır. Xalsanın Professoru irəli çıxır, aydın şəkildə narazıdır.

PROFESSOR
Həmkarım, bura universitetdir, soyunma otağı deyil. Bir az hörmət göstərin.

XALSA
(Kəskin, Pis Professora)
Əgər emosiyalar bir qüsurdursa, bəlkə də insanlıq ümumiyyətlə hüquqla məşğul olmamalıdır.

Pis Professor istehzalı şəkildə gülür və uzaqlaşır. Xalsa və Professoru möhkəm duruşla dayanırlar.

PROFESSOR
(Dəstəkləyici)
Ona fikir vermə. Belələri öz eqo və cəhalətlərindən güc alır. Zaman gələcək onun fikirlərinin səhvliyini sübut edəcəksən.

Xalsa başını tərpədir, üzündə qətiyyətli bir ifadə vardır.

Xalsa Pofessorla sağollaşıb yoluna davam edəndə masanın üstündəki qeyri-bərabər ədalət tərəzisini düzəltməyə çalışır. Bir neçə cəhddən sonra belə tərəzi hələ də qeyri-bərabər durur. Xalsa bir daha cəhd edir və düz durduğunu görüb məmnun şəkildə başını sallayıb gedir. O gedən kimi tərəzi yenə əyrilir.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - GECƏ

Binada heç kim qalmamışdır. Ətraf zəif işıqlanıb. Ən parlaq işıq Baş Redaktorun kompüterinin ekranıdır. Masanın üzərindəki bir stəkan içki yarımçıq vəziyyətdə durmaqdadır. Baş redaktor yorğun, amma diqqətli bir ifadə ilə planını həyata keçirməkdədir.

BAŞ REDAKTOR
Görək nəyin var belə, dəliqanlı.

O, ümumi serverinə daxil olur. Barmaqları inamla klaviaturanın üzərində hərəkət edir və yalnız baş redaktor kimi sahib olduğu inzibati giriş məlumatlarını daxil edir. O, gənc jurnalistin, Ümidin şəxsi qovluqlarına daxil olur.

Qovluq parol ilə qorunur. Baş Redaktor yırtıcı gülmsəmə ilə başını yelləyir və parolu zorla qırmaq üçün bir proqram açır. Bir neçə dəqiqə ərzində qovluğa daxil olur. Sənədlər və layihələr ekranda görünür. Bir fayl xüsusi olaraq diqqət çəkir: "PROJECT_SHADOW_DRAFT".

Baş Redaktor gözlərini qıyaraq sənədi açır.

BAŞ REDAKTOR (CONT'D)
Binqo.

Baş Redaoktor vaxt itirmədən mətni oxumağa başlayır. Oxuduqca ifadəsi maraqdan təəccübə dəyişir.

BAŞ REDAKTOR (CONT'D)
(Təbəssümlə, yavaşca)
Çox iddialısan, hə?

Faylları öz şəxsi yaddaşına köçürdükdən sonra məmnun halda orijinal faylları serverdən silir və heç bir iz qalmaması üçün giriş qeydlərini və ehtiyat nüsxələri təmizləyir.

Baş Redoktor sənədi redaktə etməyə başlayır. Mətni incəliklə dəyişdirir və öz üslubuna uyğunlaşdırır.

FADE OUT.

FADE IN:

İNT. REDAKSİYA - HOL - GÜNDÜZ

Ümid hirsli şəkildə Baş Redaktorun otağına yüyürür.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - DAVAM

Ümid qapını taqqıldadıb otağa daxil olur.

ÜMİD
Layihəm! Dünən gecə onu tamamlayırdım, indi isə yoxa çıxıb!

BAŞ REDAKTOR
Sakit ol cavan oğlan.
(Sanki heç nə olmamımış kimi)
Yoxa çıxıb? Nə demək istəyirsən?

ÜMİD
(Qaşqabaqlı)
Qovluğumda yoxdur. Kimsə ora daxil olub!

BAŞ REDAKTOR
(Sakit tərzdə)
Əminsən ki, yadda saxlamısan? Belə hallar olur, bilirsən. Sistem çökür, səhvlər baş verir.

ÜMİD
(Həm əsəbi, həm ümidsiz)
Xeyr, mən əminəm ki, yadda saxlamışdım. Bu, təsadüf deyil. Kimsə qovluğumu sındırıb.

BAŞ REDAKTOR
(Arxasına söykənərək, qəhvəsindən bir qurtum alır, sakit, amma məqsədli bir tonda)
Burada ciddi bir ittiham irəli sürürsən. Əlinin altında sübut varmı? Başqa kim bu hekayədən xəbərdardır? Mənbən, məsələn?

ÜMİD
(Sakitləşir, amma əsəbidir)
Xeyr... heç kim bilmir. Hətta məlumat verən belə mənim kim olduğumu bilmir.

BAŞ REDAKTOR
(Saxta bir mərhəmət ifadəsi ilə)
Başa düşürəm. Təzyiq altındasan. Ola bilsin ki, fayl korlanıb və ya yadda saxlamağı unutmusan. Ən yaxşılarımızın belə başına gəlir. Amma iddialarını dəstəkləyə bilmirsənsə, mən də nəsə edə bilmərəm.

ÜMİD
(Baxışlarını sərtləşdirərək)
Bu məsələ bağlanmayıb. Kim olduğunu öyrənəcəyəm.

BAŞ REDAKTOR
(Sakitcə təbəssüm edərək)
Əlbəttə. Haqqındır.

Ümid əsəbi halda otağı tərk edir. Baş redaktorun sakit maskası bir anlıq dağılır. Qapının bağlanmasını izləyir, sonra fırlanaraq kompüterinə baxır və indi öz adı altında saxlanılan redaktə edilmiş sənədi açır.

İNT. REDAKSİYA - ÜMİDİN OTAĞI - DAVAM

Ümid içəri daxil olub cəld qapını açarlayır. Otaqda bir rəsm arxasında gizlətdiyi şeyi götürmək istəyir amma o arada yoxdur.

FLASHBACK:

İNT. REDAKSİYA - ÜMİDİN OTAĞI

Baş Redaktor Ümidin otağında olaraqkən Ümid çölə çıxıb iş yoldaşına bir sənəd verərkən Baş Redaktor otağa balca kamera gizlədir.

END FLASHBACK.

İNT. REDAKSİYA - ÜMİDİN OTAĞI - DAVAM

Ümid informatoruna zəng edir. Lakin telefon nömrəsi aktif deyil.

FLASHBACK:

EKST. KÜÇƏ - GÜNDÜZ

Fayllara əsasən Baş Redoaktorun ADAMı informatoru tapır.

Adam İnformatorla görüşür.

ADAM
Kimliyin ortaya çıxmaq üzərədi. Səni sağ buraxmazlar. Nə qədərki vaxtın var ...
(ona çanta uzadır)
... al bu pulları və yox ol.

İnformator qorxuya düşüb çantanı qapıb qaçır.

END FLASHBACK.

İNT. REDAKSİYA - ÜMİDİN OTAĞI - DAVAM

Ümid gözləri boşluğa zillənmiş şəkildə durub qalır.

ÜMİD
Nə baş verir burada?

CUT TO:

İNT. POLİS - GÜNDÜZ

Ümid polisə gəlib şikayət yazır.

CUT TO:

İNT. UNİVERSİTET - HÜQUQ FAKÜLTƏSİ - PROFESSORUN OTAĞI - GÜNDÜZ

Xalsa Ümidi darta-darta gətirir. Onlar dərdlərini PROFESSORA danışırlar.

CUT TO:

İNT. AİLƏ EVİ - OTURAQ OTAĞI - AXŞAM

Xalsa və Ümid məyus şəkildə özlərini divana atırlar.

XALSA
Şübhələndiyin biri var?

Ümid bir müddət ifadəsiz şəkildə səssiz qalır.

XALSA (CONT'D)
Polis də bir şey tapmadı. Deməli orada hər şeyə əli çatan biri olmalıdır. Baş Redoktor?

ÜMİD
(tutqun şəkildə)
Bunu düşünmək belə istəmirəm... Amma həqiqətən də ondan başqa kim ola bilər ki?

Xalsa Ümidin kürəyini ovaraq ona təsəlli verməyə çalışır.

İNT. REDAKSİYA - ÜMUMİ OFİS - GÜNDÜZ

İŞÇİLƏR Baş Redaktoru uğurlu məqalə ilə təbrik edirlər.

İŞÇİ 1
Bravo! Bu doğrudan da siz kimi bir ustadan gözlənilən bir işdir.

İŞÇİ 2
Televizorda belə bu iş haqqında danışırlar. İntervyu vermeyi fikirləşirsiniz?

BAŞ REDAKTOR
Dostlar, dostlar. Mən sadəcə öz işimi görürəm.

Ümid əsəbi şəkildə gəlib məqalə olan qəzeti Baş Redaktorun üzünə tutur.

ÜMİD
Bunu necə edə bildiniz axı?!

İŞÇİ 1
Ümid, yavaş. Nə olub sənə, ay qardaş?

ÜMİD
Bu mənim neçə vaxtır üzərində işlədiyim iş idi.
(Baş Redaktora gözlərini zilləyir)
Siz mənim kumirim idiniz. Axı bu qeyri etik- alçaq!

İşçilər Ümidi kənara çəkib sakitləşdirməyə çalışırlar.

İŞ YOLDAŞI
Ümid sakitləş görək.

Baş Redaktor həqarət edilmiş kimi duruş alır.

BAŞ REDAKTOR
(soyuqqanlı və özündən əmin)
Bu ittihamlarını dəstəkləyəcək heç olmasa bir sübutun varmı?

Ümid nəsə deməyə hazılaşır lakin huşunu itirib yıxılır.

İNT. XƏSTƏXANA - XƏSTƏ OTAĞI - GECƏ

Ümid xəstəxana çarpayısında huşsuz uzanmaqdadır. Xalsa isə onun başında durmuşdur. Xalsa qardaşının başına sığal çəkir.

HƏKİM də pasiyentin kağızlarına bir daha nəzər yetirib Xalsaya vəziyyətini başa salır.

HƏKİM
Qardaşınız bir müddət burada müşahidə altında saxlanılmalıdır. Axır zamanlar davamlı stress altında olduğunu söylədiniz. Bu da onun onsuz da zəif olan sağlamlığına öz təsirini göstərib.

Xalsanın gözləri dolur lakin ağlamamaq üçün özünü sıxır.

XALSA
Sizə yalvarıram, həkim. Ona yaxşı baxın. Bu həyatda ondan başqa heç kimim yoxdur.

Həkim başını yavaşca təsdiq olaraq sallayır və otaqdan çıxır.

Xalsa Ümid oyanana qədər yanında qalır.

Ümid gözlərini açdıqda onun əlini tuta-tuta yuxuya getmiş Xalsanı görür. Ümid Xalsanın başını sığallayan kimi Xalsa oyanır.

XALSA (CONT'D)
Ümid!

Xalsa Ümidin üzərinə atlamaqdan özünü yarı yolda saxlayıb ehmalca boyuna sarılır. Artıq Xalsa göz yaşlarını tuta bilmir. Ümid ehmalca onun göz yaşlarını silir.

ÜMİD
Dayan görüm. Məndən elə asan qurtuluş yoxdu.

XALSA
Eee, yaxşı da.

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI - SƏHƏR

BAŞ HƏKİM (50-lərində) qaş-qabaqlı şəkildə xəstələr haqqında məlumata baxarkən Ümidin kağızları yanında qonşu otaqdakı XƏSTƏdə dayanır.

BAŞ HƏKİM
Deməli kimsəsizsən... Əla.

İNT. XƏSTƏXANA - HOL - GECƏ

Hol sakitdir və ətrafda heç kim yoxdur.

Ümid özünü yaxşı hiss etdiyi üçün gəzmək istəyir. Baş həkimlə Həkim qonşu otağa oğrun-oğrun daxil olurlar.

Otaqda tək uzanan KİMSƏSİZ PASİYENT yatmaqdadır. Həkim ona iynə vurur.

BAŞ HƏKİM
Bunu tez hazır edib çatdırmalıyıq unutma.

HƏKİM
Kimsəsizə görə nəticələri əladı. Çox sağlamdı.

BAŞ HƏKİM
Dilinə yox, əlinə güc ver.

Ümid onların söhbətini eşidib nə etmək istədiklərini anlayır. Otağına tələsəndə Baş Həkim onu göz ucu olsa da görür və təlaşlanır.

CUT TO:

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI - GECƏ

Baş Həkim Ümidin işini oxuyur və internetdə onu araşdırır.

BAŞ HƏKİM
Nə zibilə düşdük.

CUT TO:

İNT. XƏSTƏXANA - HOL - SƏHƏR

Baş Həkim heç kimin görmədiyindən əmin olduqdan sonra Ümidin dərmaları olan stolu kamera olmayan yerə çəkir və dərmanların içini dəyişir.

İNT. XƏSTƏXANA - AXŞAM

Xalsa qardaşının yanına gələndə pisləşdiyini anlayıb təlaşlanır.

XALSA
Ümid, yaxşısan? Burdayam! Cavab ver mənə!

ÜMİD
(çətinliklə danışaraq)
Xalsa... baş həkim... qanun-...

Xalsa təcili çağırış üçün olan düyməni sıxır.

XALSA
Başa düşmədim! Döz, indi həkim gələcək!

Xalsa dözməyib otaqdan çıxır.

XALSA (CONT'D)
(bərkdən bağırır)
Kömək edin!

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI - SƏHƏR

Xalsa otağa xışımla daxil olur.

XALSA
Niyə qardaşımın vəziyyəti getdikcə pisləşdi? Nə baş verir?

BAŞ HƏKİM
(soyut şəkildə)
Həkim işinə müdaxilə etməyin, xanım. Bizim həkimlər öz işlərini bilirlər.

XALSA
Xeyir! O buraya gələndə bu dərəcə pis deyildi! Dünən az qala-
(səsi titrəyir)
-qardaşımı itirirdim! İndi isə o komadadır. Necə?

BAŞ HƏKİM
Sakitləşin görək!

Xalsa otaqdan çıxır.

İNT. XƏSTƏXANA - XƏSTƏ OTAĞI - DAVAM

Baş həkim Ümidi yoxlamağa gəlir və çarpayının boş olduğunu görür.

İNT. ÖZƏL XƏSTƏXANA - XƏSTƏ OTAĞI - GECƏ

Ümidin İş Yoldaşı və Xalsa komada uzanmış Ümidi izləyirlər.

ÜMİDİN İŞ YOLDAŞI
Narahat olma, Xalsa. Girişdə onu digər adla qeyd elədik. Heç kimi də buraxmayacaqlar buraya.

Gözlərini Ümidə zilləmiş Xalsa yuxudan ayılmışcasına özünə gəlir. Ümidin İş Yoldaşının əlindən tutur.

XALSA
Sənə nə qədər təşəkkür etsəm azdır.

ÜMİDİN İŞ YOLDAŞI
Borcumdur. O mənə həmişə bir qardaş kimi dayaq olub.

XALSA
Bunu necə etdin?

ÜMİDİN İŞ YOLDAŞI
Buranın sahibi anamın yaxın qrup yoldaşı olub... Sən mənə hələ bu məsələni aydın anlat.

Xalsa Ümidə yaxın gəlir.

XALSA
Ümid komaya girməzdən əvvəl "baş həkim" və "qanun-" sözlərini dedi. Məncə qanunsuzluq nəzərdə tuturdu. Baş həkimin yanına gedəndə də məndə qəribə bir hiss oyatdı. Kamrealar da çox yerdə ya yox idi, ya da işləmirdi. Ümidi orada qoya bilməzdim.

ÜMİDİN İŞ YOLDAŞI
Düz elədin. Bəs bundan sonra nə edəcəksən?

XALSA
Vəkil tutacam. O iki şərəfsizlə məhkəmədə mübarizə aparacam.

ÜMİDİN İŞ YOLDAŞI
Sənə bir bacı məsləhəti - hər şeyə hazır ol.

CUT TO:

MONTAGE:

1. Xalsa bir VƏKİL tapır.

2. Vəkil işi davam etdirmək istəmir.

3. Xalsa BAŞQA VƏKİL tapır.

BAŞQA VƏKİL
Əlimizdə ağırlığı olan bir sübut yoxur.

XALSA
Bu necə ola bilər?! Nəsə bir iz qoymalıdırlar axı!

BAŞQA VƏKİL
Sizə bir məsləhət özünüzü hədər etməyin. Başqa-

Xalsanın qulağında sözlər səslərə dönür, o heç nə eşitmək istəmir.

4. Xalsa sənədlər və kitablar arasında araşdırma aparır.

5. Xalsa Professoru ilə danışır.

6. Məhkəmədə Baş Redaktor işini uduzur.

7. Məhkəmədə Baş Həkim işini uduzur.

8. Xalsa yolda gedərkən dayanır və ətrafdan keçən insanların hərəkətləri yavaşlayır və vaxt elə bil getdikcə yavaşlayır.

END MONTAGE

İNT. MƏHKƏMƏ ZALI - GÜN

Hər kəs otağı tərk edərkən Xalsa tükənmiş və ağır zərbəyə tuş gəlmiş şəkildə durur və yerində tərpənmədən gözlərini ədalət heykəlinə zillənmiş saxlayır.

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI - GECƏ

Baş Həkim masa arxasında oturmuş soyuq baxışlarla faylları gözdən keçirməkdədir.

İçəri Həkim girir.

HƏKİM
Səncə də çox irəli getmirsən? Bunun sonu yaxşı olmayacaq.

BAŞ HƏKİM
(saxta gülümsəmə ilə)
Narahat olma. Hər şey əla olacaq.

Həkim daha nəsə demək istəyir lakin özünü tutur və otaqdan çıxır.

O getdikdən sonra Baş Həkim faylları kənara qoyur əllərini birləşdirir və üzünü əllərinə yaslayaraq fikrə gedir.

İNT. XƏSTƏXANA - QARAJ - GECƏ

Qaraj zəif işıqlıdır. Soyuq beton hər səsi gücləndirir.

Baş Həkim maşınına doğru gedərkən Xalsa gözlədiyi bucaqdan çıxıb onun ardınca gedir. Baş Həkim arabasının şüşəsindəki yansımada Xalsanı görür və diksinir. Lakin özünü ələ alıb arxaya çevrilmədən gülür.

BAŞ HƏKİM
(lağ-lağı ilə)
O, kimlər varmış burda.

Xalsa əlini yumuruq edir və Baş Həkimə hücum edir. Baş Həkim zireh şəkildə kənara addım atır. Xalsanın yumruğu maşına dəyir və saatı açılıb yerə düşür. Xalsa sürətlə dönüb Baş Həkimə bu dəfə yumuruğunu tutdurduğu üçün və ağrıdan saatının düşdüyünü hiss etmir. Baş Həkim yerə sərilir. Xalsa ona təpik vurma anında özünü saxlayır və elə bil yuxudan oyanmış kimi geri çəkilir.

BAŞ HƏKİM (CONT'D)
Kömək edin! Adam öldürürlər!

Xalsa Baş Həkimə nifrətlə baxış atıb oradan ayrılır.

Baş Həkim ayağa qalxıb ağızını silir.

BAŞ HƏKİM (CONT'D)
Elə bilirsən bu sənin yanında qalacaq?

Baş Həkim maşınına çatanda yerdəki saatı görür və gülümsəyir.

Baş Həkim maşınından bir torba götürüb əlinə keçirdikdən sonra saatı götürür.

CUT TO:

İNT. AİLƏ EVİ - OTURAQ OTAĞI

Xalsa ədaləti gözlədiyi kimi tapa bilmədiyi üçün acıqlı ora-bura gedir.

Xalsa böyük güzgüdə özünü sonra da axrasındakı şkafda duran dekorativ tərəzini görür.

XALSA
Niyə? Axı hardadır ədalət?!

Xalsa əli altında olan balca qabı qapıb atır və güzgünü sındırır.

İNT. ÖZƏL XƏSTƏXANA - HOL

Ümidin İş Yoldaşı görünüşünü dəyişmiş şəkildə oraya girən Xalsanı qarşılayır.

ÜMİDİN İŞ YOLDAŞI
Xalsa...

XALSA
İkisində də uduzdum. Üstəlik evimizi itirmə ehtimalı var.

İNT. ATILMIŞ ANBAR - GECƏ

Zəif işıq anbarın boşluğunda titrəyir. Paslanmış rəflər və təsədüfi tullantılar xaotik bir mənzərə yaradır. Sarı cinayət yerinin lentlərini, sonra da yerə sərilmiş Həkimin cəsədini görürük. MƏHKƏMƏ TİBB MÜTƏXƏSSİSLƏRİ və POLİS MƏMURLARI sahəni araşdırırlar.

İti baxışlı MÜSTƏNTİQ cəsədin yanında diz çökür, qanla boyanmış bir obyektə ehtiyatla toxunur.

MÜSTƏNTİQ
(məhkəmə tibb mütəxəssisinə)
Bunu paketlə.

Məhkəmə tibb mütəxəssisi deyiləni edir.

Müstəntiq cəsədin yanındakı sürüşmüş dirəyin altında parıltı verən kiçik bir obyekti fərq edir.

MÜSTƏNTİQ (CONT'D)
Görək bu nədi.

Müstəntiq qırılmış qol saatını üzə çıxarır.

MƏHKƏMƏ TİBB MÜTƏXƏSSİSİ
Daha bir dəlil?

MÜSTƏNTİQ
Ola bilər. Bunu da paketlə.

Texnik saatı dəlil paketində salır.

İNT. POLİS BÖLMƏSİ - MÜSTƏNTİQ OTAĞI - GÜNDÜZ

Müstəntiq və KÖMƏKÇİsi yeni gətirilmiş nəticələri gözdən keçirirlər.

KÖMƏKÇİ
Saatın kəmərindən qismən barmaq izi çıxardıq. Arxa hissəsində isə bir yazı var.

Köməkçi, Müstəntiqə bir foto ötürür: “Xalsa qızıma bütün sevgimlə - Anan”.

KÖMƏKÇİ (CONT'D)
Barmaq izi qurbanınki deyil. Onda müqəssir bu saatın sahibidir?

MÜSTƏNTİQ
Ola bilər. Adı yoxlayın. Görək kimindir.

EKST. AİLƏ EVİ OLAN KÜÇƏ - GÜNDÜZ

Xalsa evdən nəsə götürməyə gələrkən qapıda duran POLİSLƏRİ görür. Müstəntiq üzünü Xalsa tərəfə çevirir, lakin Xalsa görülmədən gizlənir. Müstəntiq hiss etmiş kimi Xalsanın gizləndiyi yerə yaxınlaşır, lakin Xalsa artıq görünmədən qaçmışdır.

İNT. XALSANIN GİZLƏNDİYİ EV - GÜNDÜZ

Xalsa gizləndiyi evə qayıdıb pəncərələri pərdələyir. Ümidin İş Yoldaşı zəng edir.

ÜMİDİN İŞ YOLDAŞI
(narahat)
Təcili xəbərləri açıb baxmalısan.

Xalsa cəld televizoru yandırır.

XƏBƏR APARICISI
...həkim öldürülmüş və əsas şübhəli axırıncı pasiyentinin bacısı sayılır. O, bu cinayətdən öncə həmçinin baş həkimə də hücum etmişdir...

Qarajdakı kəsik hücum kadrları da verilir.

XALSA
Bu montajdı!

ÜMİDİN İŞ YOLDAŞI
Bilirəm.

XALSA
Mən heç kimi öldürməmişəm!

ÜMİDİN İŞ YOLDAŞI
Mənim budan zərrə şübhəm yoxdu, Xalsa!

XALSA
Polisə getmək lazımdı. Hər şeyi izah etməliyəm!

Xalsa sözün sonuna elə bil aydınlanma yaşayarcasına donur. Ümidin İş Yoldaşının səsi onun üçün get-gedə uzaqlara gedirmişcəsinə azalır.

ÜMİDİN İŞ YOLDAŞI
Xalsa, sakitliyi əldən vermə, xahiş edirəm.

Xalsanın gözünün önünə uduzduğu məhkəmələr zamanı orada duran polislərin tülkü simaları gəlir.

XALSA
Yox. Polisdə heç şübhəsiz adamları var o çaqqalların.

İNT. ÖZƏL XƏSTƏXANA - XƏSTƏ OTAĞI - GECƏ

Xalsa yarı-qaranlıqda Ümdin əlindən tutaraq fikrə dalmışdır.

MATCH CUT TO:

EKST. PARK - AĞACIN ALTI - GÜNDÜZ

Xalsa sakitdə oturmuş fikirlərini toplamağa çalışır.

XALSA
İndi başa düşürəm ki, başqalarından soyuqqanlı davranmalarını gözləmək mən tərəfdən necə təkəbbürlü bir davranış idi.

FLASHBACK: Professor leksiyada ədalətin gücünü izah edir.

FLASHBACK: O və qardaşı məhkəməyə ümidlə hazırlaşırlar.

FLASHBACK: Ümid və Xalsa birlikdə parkda qəhvə içirlər, gülürlər.

GÜNÜMÜZƏ QAYIDIŞ: Xalsa göz yaşını silir və üzündə ifadədən beynində coşan qara fikirlər çölə daşır.

İNT. XALSANIN GİZLƏNDİYİ EV - GECƏ

Xalsa geyimini dəyişmiş və üzünü gizlətmiş şəkildə güzgünün yanından keçib evdən çıxır.

EKST. KÜÇƏ - GECƏ

Xalsa dayanıb ətrafına baxındıqdan sonra bir köhnə binanın qapısını musiqili ritmdə tıqqıldadır.

İNT. SAXTA SƏNƏD USTASI İLƏ GÖRÜŞ YERİ - GECƏ

Xalsa zəif işıqlandırılmış, divarların boyası sökülmüş bir otağa daxil olur. Köhnə mebellər və dağınıq kağız yığınları otağın havasına görə bir az sönük və sərhədsiz hiss yaradır. Onu orta boylu, eynəkli, saçlarına dəmir kimi ağ qarışmış, yaşının 60 arasında olduğunu düşüdüyü bir SƏNƏD USTASI qarşılayır. O, Xalsanı ailcənab şəkildə qarşılayır.

SƏNƏD USTASI
Xoş gəldiniz!

Sənəd Ustası otaqda olan az sayda işıq mənbəsini bir-bir yandırır. Xalsa etibarsız baxışlarla onu izləyir, amma söz demir. Birdən otaq gur işıqla dolur, Xalsa nəhayət daha aydın görünən divarlara, kağızlara və Sənəd Ustasının diqqətli baxışlarını daha yaxşı görməkdədir. Masanın üstündə kağızlarla dolu bir düzən qurulmuşdur.

SƏNƏD USTASI (CONT'D)
Buyurun, oturun.
Sizin istədiyiniz diplom və lazım olan digər sənədlər hamısı hazır buradadır.

Xalsa oturur. Sənəd Ustası diplom və sənədləri bir-bir göstərir.

SƏNƏD USTASI (CONT'D)
İndi isə ödənişin geri qalanını görmək istərdim.

XALSA
Əlbəttə.

Xalsa sakitcə çantasından məbləği çıxarır və masaya qoyur. O, sənədləri diqqətlə baxıb yığır.

SƏNƏD USTASI
Sənədləri istəmək səbəbiniz mənə maraqlı deyil.

XALSA
Niyə ki? Mənə bunu izah etmək çətin deyil. Qardaşıma qarşı haqsızlıq edib əllərində olan gücə görə cəzadan qaçmış və mənim də üzərimə etmədiyim cinayəti atan iki adamın başına oyun açacam. Bu sənədlərə verdiyim pul da, yanlış anlamayasınız deyə deyirəm, özüm işləyib qazandığım təhsil haqqımdır.

Sənəd Ustası bunu eşidəndə duruxur. Üzündə Xalsaya qarşı hörmət ifadəsi artır, həyata olan soyuq və bezgin baxışları yumşalır.

Sənəd Ustası qızın indicə verdiyi pulları qıza geri qaytarır.

XALSA (CONT'D)
Başa düşmədim?

SƏNƏD USTASI
(həfif amma ürəkdən gülümsəmə ilə)
Götür, qızım. Sənə bu işdə ürəkdən uğurlar arzulayıram. Əgər ki, işin alınsa məni yaşxılıqla yada salarsan.

Xalsa bu hərəkətə heyrətlə və qarışıq hisslərlə reaksiya verir. Sonunda üzündə bir təşəkkür hissi açılır.

EKST. SAXTA SƏNƏD USTASI İLƏ GÖRÜŞ YERİ - DAVAM

Xalsa çölə çıxıb dərin nəfəs alıb verir.

XALSA
Bu da saxtakar. O tərəfədə də işini guya haqq ilə görən hörmətli bəylər.

İNT. UNİVERSİTET - HÜQUQ FAKÜLTƏSİ - PROFESSORUN OTAĞI - GÜNDÜZ

Müstəntiq Xalsanın YAXIN QRUP YOLDAŞIna burada ona suallar verir.

YAXIN QRUP YOLDAŞI
(özündən tam əmin)
Yox! O heç vaxt bir insana zərər yetirməz. Hələ qalsın canını almağa.

YAXIN QRUP YOLDAŞI (CONT'D)
(gözləri dolur)
Ona şər atıblar! Şərdi bunlar hamısı!

MÜSTƏNTİQ
Bu qədər bəsdi. Gedin sakitləşin.

Yaxın qrup yoldaşı otaqdan çıxandan sonra Müstəntiq Professoru səsləyir.

MÜSTƏNTİQ (CONT'D)
(hörmətlə)
Professor, rica edərdim, gələrdiniz.

Professor içəri girir və ağır addımlarla yerində keçib oturur, sonra da Müstəntiqə oturması üçün əli ilə yer göstərir. Müstəndiq göstərilən yerdə otutur.

PROFESSOR
Cənab müstəntiq... Xalsa qayda və qanunlara çox bağlı nadir insanlardandır. Nizam intizamlı bir tələbədir. Əsl hakim ruhuna sahibdir.

MÜSTƏNTİQ
İşin içində sevdiklərimiz olanda nə edəcəyimiz bilinməz.

PROFESSOR
Razıyam. Amma insan öldürmək elə də asan deyil. Bunu məndən də yaxşı bilirisiniz. Xalsa da başqa əqlin insanıdır.

MÜSTƏNTİQ
Rəfiqəsi şərləndiyini düşünür.

PROFESSOR
Məncə də bu belədir. Sizə nacizanə məsləhətim ilkin sübutlara baxıb tələsməyin. Bəzən ən açıqda olan cavab-

MÜSTƏNTİQ
-ən yalnış cavabdır...

İNT. UNİVERSİTET - HÜQUQ FAKÜLTƏSİ - İSTİRAHƏT OTAĞI

Kitab rəfləri və qəhvə fincanları ilə dolu professorların dərslər arasında istirahət etdiyi rahat bir məkan. Pis Professor BİR NEÇƏ HƏMKARI ilə oturub, qəhvəsini yavaş-yavaş qarışdırır.

HƏMKAR 1
Eşitdiniz? Xalsa adlı tələbəni polis axtarır.

PİS PROFESSOR
(Səsi alçaqdır, istehzalı)
Sizə demişdim. Çox təcrübəsiz, çox...emosional. O, qanunla yox ideallarla məşğul idi.

HƏMKAR 2
(Yarı dinləyir)
İdealizm pis bir şey deyil. Çoxumuz bu sahəyə bundan güc alıb gəlmişik.

PİS PROFESSOR
(Çiyinlərini çəkir)
İdealizm nəzəriyyədə yaxşıdır, amma praktikada deyil. Xüsusilə zəif cins tərəfdən. Hakimlərdə soyuq, sərt məntiq olmalıdır. Həssaslıq yox.

Pis Professor qəhvəsini istehzalı bir ifadə ilə içir. Həmkarları nəzər mübadiləsi edir, lakin susurlar. Pis Professor öz hökmündən məmnun şəkildə arxaya söykənir.

İNT. REDAKSİYANIN GİRİŞİ - GÜNDÜZ

Xalsa, yeni kimliyində və xarici görünüşlə, içəri daxil olur. Baş Redaktorun olduğu bir divar şəklinə baxış atır. Ətrafda bəzək əşyası olaraq qara şamlar və bir neçə əqrəb fiqurları var. Xalsa onların yanından keçərkən şamların alovu sönür.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - GÜNDÜZ

Qapı döyülür.

BAŞ REDAKTOR
Girin!

Xalsa qapını açıb içəri daxil olur.

XALSA
(Səmimi gülümsəyərək)
Salam. Mənim adım Xatirə Ümid.
Deyəsən, məni gözləyirdiniz?

BAŞ REDAKTOR
(Sərt nəzərlərlə Xalsanı
süzür)
Yeni yazarımız? Sənədlərini aldım.
Deyilənə görə, bir neçə mükafat
qazanmısan.

Xalsa qısa təbəssümlə başını tərpədir.

XALSA
(Özündən əmin)
Bəli. Amma mən bu işə mükafatlar
üçün deyil, insanlara həqiqəti
çatdırmaq üçün gəlmişəm.

Baş redaktor arxasına söykənərək Xalsanı müşahidə edir.

BAŞ REDAKTOR
Ən yaxşı niyyətlər ən təhlükəli
silahlar ola bilər. Gözləntilərimi
yüksəldirsən, amma səni xəbərdar
edirəm. Bu işdə heç kim təhlükəsiz
deyil.

Xalsa onun sözlərinə cavab vermir, amma gözlərində bir qətiyyət parlayır.

İNT. QUMARXANA - GECƏ

Baş həkim həmişə oturduğu masa arsasına yönələrkən orta yaş OFİSİANT onu qaş-göz ilə YENİ OFİSİANTa göstərir.

OFİSİANT
Bu cənab da həmişəkilərdəndir.

Baş Həkim masa arxasına əyləşən kimi QUMAR YOLDAŞLARI ona çevrilir. İzləyicyə onların üzləri gizli qalır.

QUMAR YOLDAŞI 1
Harda qalmısan, a qardaş? Gəl çıx
da!

QUMAR YOLDAŞI 2
Biz də elə səndən danışırdıq. İllər
əvvəl o qədər pul uduzdun,
halaldır. Yenə də ayaqdasan.

QUMAR YOLDAŞI 3
Elə bil ondan sonra heç uduzmayıb. Doğrudan bu dərənin suyu haradan gəlir?

QUMAR YOLDAŞI 2
(qumar yoldaşı 3-ə dönüb)
İçkini yenə çox qaçırmısan yenə. Heç kimsə bunu deyər?

İNT. XALSANIN GİZLƏNDİYİ EV - OTURAQ OTAĞI

Xalsa kompüterdə səyahət hədiyyə kuponu hazırlayıb BAŞ HƏKİMİN KATİBƏSİNƏ göndərir.

Xalsa ona zəng edir.

KATİBƏ (V.O.)
(şübhəli tonda)
Siz məni aldatmırsız?

XALSA
Biz ad-sanımızı fikirləşən travel şirkətiyik. Bizə güvənə bilərsiniz.

KATİBƏ (V.O.)
(sevincli çılıq səsləri)

Xalsa qulağını kənara çəkir.

KATİBƏ (V.O.) (CONT'D)
Mən istirahətə gedirəm! Çox sağ olun, ay qızım!

XALSA
Sizə gözəl istirahətlər.

Xalsa zəngi bitirir və köks ötürür.

XALSA (CONT'D)
Yaxşı ki, qəbul etdiniz. Yoxsa ikinci planım sizi zəhərləyib xəstəxanaya salmaqdı.

İNT. XƏSTƏXANA - HOL - GÜNDÜZ

Xalsa xəstəxanaya peşəkar geyimdə daxil olur. Saçları arxaya bağlamışdır, üzü isə bir sakitlik maskasıdır.

CAVAN BİR HƏKİM əlində analizlər olan tibb bacısı olan GÜLƏDAnı kənara çəkməyə çalışır. Güləda soyuq şəkildə ona nəsə deyib yolunda davam edir.

Cavan Həkim də acıqlı baxış atdıqdan sonra heç nə olmamış kimi yoluna davam edir. Kənarda duran tibb bacılarından biri olan GÜNAHKAR TİBB BACISI qəsitli şəkildə çiyni ilə əlində analiz olan Gülədaya çarparaq əlindən nümunələrinin düşməsinə səbəb olur.

GÜNAHKAR TİBB BACISI
A! Ehtiyatlı ol da! Hara gedtiyinə bir bax da, ay qız!

Günahkar tibb bacısı digər yoldaşlarına qoşulur və üstü başı batmış Gülədanın dalınca oğrun-oğrun baxıb gülürlər. Güləda kənara büzüşüb göz yaşlarını gizlətməyə çalışaraq yerdən qabları götürür.

Xalsa cəld şəkildə Gülədaya yardım edir və özü ilə aparır.

İNT. XƏSTƏXANA - DƏYİŞMƏ OTAĞI - DAVAM

Xalsa öz əlavə paltarlarından Gülədaya verir.

XALSA
Narahat olma. Mən nə olduğunu gördüm. Şahidlik etməyə hazıram.

GÜLƏDA
Çox sağ olun. Ehtiyac yoxdur. Onsuz da mənsızdır.

XALSA
Onlar niyə belə edirlər axı? Belə olmaz.

GÜLƏDA
Yeni gəlmişəm. Mənə dəyib gedənin xoşuna gələn həkim mənlə maraqlanır deyə bilmir nə etsin. Ona demişdim, marağım yoxdu. Həkimə də səbəb verməmişəm.

Xalsa Güləda üstünü rahat dəyişsin deyə otaqdan çıxır.

EKST. AİLƏ EVİ OLAN KÜÇƏ - GECƏ

Küçə sakit və insansızdır. Yalnız Xalsanın ailə evinin yaxınlıqlarında saxlamış bir sadə maşında SİVİL POLİS əməkdaşı oturmaqdadır. Müstəntiq maşının pəncərəsini həfif tıqqıldadıb içəri oturur. Əlində bir kağız paket vardır.

İNT. İZLƏMƏ MAŞINI - DAVAM

MÜSTƏNTİQ
Necəsən?

Müstəntiq paketi Sivil Polisə uzadır.

MÜSTƏNTİQ (CONT'D)
Buyur, nuş elə.

SİVİL POLİS
(paketi götürür)
Çox sağ olun.

İkisi də nəzərlərini evdən ayırmırlar.

SİVİL POLİS (CONT'D)
Mən yaxşı olmağa yaxşıyam, amma nə qədər vaxt keçib artıq heç kim gəlib-getmir.

Müstəntiq fikrə gedir.

İNT. XƏSTƏXANA - HR OTAĞI

Xalsa xəstəxananın HRı ilə görüşür.

HR
Deməli əvəzə sizi göndəriblər.

Xalsa sənədlərini təqdim edir. HR sənədlərə baxır. Bir müddət səssizlik olur.

HR (CONT'D)
Oldu.

Xalsa otaqdan çıxır.

XALSA
(öz-özünə)
Kirli əməllər mütləq arxadan bir iz qoymalıdır.

İNT. XƏSTƏXANA

MONTAGE:

Xalsa işlədikcə Baş Həkimi müşahidə edir.

END MONTAGE.

INT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI

Müstəndiq ora gələndə Xalsanın yanından keçir və durur. Xalsa bunu görüb bacardıqca şübhə oyandırmadan ordan uzaqlaşır.

BAŞ HƏKİM
İşlər nə yerdədi? Müqqəsiri tapa bildinizmi?

Müstəntiq ona çəp-çəp baxaraq sualın tonundan xoşlanmadığını gizlətmir.

MÜSTƏNTİQ
Narahat olmayın. Mən bu vəzifədə yeni olsam da günahkarı tapmadan dayanan deyiləm, əmin olun.

İNT. XƏSTƏXANA - HOL

Xalsa bəzi faylların saxlandığı və izləmə otağına yaxın olan bölgəyə gəlir. Keçit etmək üçün TƏHLÜKƏZLİK İŞÇİSİnə sakit və əmin şəkildə yaxınlaşır.

TƏHLÜKƏZLİK İŞÇİSİ
Sizi kim göndərib?

Xalsa saxta bir gülümsəmə ilə əlindəki sənədi ona uzadır.

XALSA
Baş həkim.

Təhlükəsizlik işçisi kağızı götürüb üstdən göz keçirdikdən sonra Xalsaya qaytarır.

TƏHLÜKƏZLİK İŞÇİSİ
Keçin.

Xalsa yan otağa girər kimi edir və qapısı açıq olan kamera otağına göz yetirir. Təhlükəsizlik İşçisi qarnını sıvazlayıb saatına baxır və otağı sadəcə qapını örtərək tərk edir. Xalsa bütün bunları izləməkdədir.

İNT. XƏSTƏXANA - HOL - SONRAKI GÜNLƏR

Xalsa yenə sənəd gətirir. Bu dəfə yan otağa girir və Təhlükəsizlik İşçisi yenə adəti üzrə gedəndən sonra Xalsa sənəd otağından çıxıb kamera otağına girir.

İNT. XƏSTƏXANA - KAMERA OTAĞI - DAVAM

Xalsa kompüterə xüsusi fləşkartı salır.

XALSA

Haydı.

Tarixi yazıb videonu tapır. Lakin o hissə silinmişdir.

İNT. XƏSTƏXANA - HOL - DAVAM

Təhlüksizlik İşçisi geri qayıdarkən, Güləda onu dayandırır.

GÜLƏDA

Girişdə dava var. Adamların silahı da ola bilər.

Təhlüksizlik İşçisi dərhal oranı tərk edir.

Güləda kamera otağına doğru gedir. Ətrafa baxınıb qapıdan tutur.

İNT. XƏSTƏXANA - KAMERA OTAĞI - DAVAM

İçəridə Xalsa qapının səsini eşidib kənarda kölgəli yerdə gizlənir. Güləda içəri girib tarixi görür və otaqda başqa biri olduğunu hiss edir. Xalsa qapıdan çıxmaq istərkən tibb bacısı dönüb onu görür. İkisi də bir anlıq yerində donur. Baxışaraq yavaşca kənara çəkilirlər.

GÜLƏDA

Vaxtımız azdı.

XALSA

Yarımçıq verilərək məni günahkar göstərən video yazını götürməyə gəlmişəm.

İkisi də kompüter arxasına keçir.

XALSA (CONT'D)

Lakin yazının bir qismi kəsilib və silinib.

Güləda cibindən bir harddisk çıxardıb zireh şəkildə bir neçə kod yığır. Xalsa digər ekranda işçini güdür. Güləda silinmiş yazıları geri qaytara bilir.

GÜLƏDA

Alındı.

XALSA

Əhsən!

Xalsa flaşkartına işarət edir və Gülədа videoyazını oraya keçirir. Sonra özünə lazım olan videonu axtarır amma o da silinmişdir.

GÜLƏDA
Mənə lazım olan video bir az uzundu.

Digər ekranda təhlükəsizlik işçisinin geri qayıtdığı görünür.

XALSA
Tələsmək lazımdır. Geri qayıdır.

Gülədaya lazım olan videolar dolub qurtarmamış Təhlükəsizlik İşçisi artıq yan korridordadır. Tibb bacısı videonu flaşkartına keçirən kimi Xalsa onu yan otağa aparır.

Təhlüksizlik İşçisi kamera otağına girən kimi, Xalsa və Güləda oranı tərk edirlər.

EKST. XƏSTƏXANANIN HƏYƏTİ - DAVAM

Xalsa və Güləda bir skamyada otururlar. Xalsa ani şəkildə diksinib ayağa qalxır.

XALSA
Bizim burada olduğumuzu silməli idim!

Güləda onun qolundan ehmalca tutur.

GÜLƏDA
Narahat olmayın. Mən silməyə çatdırdım.

Xalsa dərin bir ah çəkib özünü skamyaya atır.

XALSA
Sağ olasan!

Bir müddət səssiz xəstəxananın həyətində otururlar.

GÜLƏDA
Bu olanlar…

XALSA
Əlbəttə ki, aramızda qalacaq.

Yenə də səssiz qalırlar.

GÜLƏDA
Anam burada tibb bacısı olaraq çalışırdı.
(MORE)

GÜLƏDA (CONT'D)
Bir gün işə getdi və gəlmədi. O vaxtan onu axtarıram. Xəstəxananın günahı olduğunu düşünürəm. Son ümidim videolardı.

İNT. POLİS BÖLMƏSİ - LABARATORİYA - GÜNDÜZ

Müstəntiq Məhkəmə tibb mütəxəssisin yanında durmuşdur. Masada artıq yoxlanılmış bağlama, məktub və fləşkart vardır.

MƏHKƏMƏ TİBB MÜTƏXƏSSİSİ
Əl izləri şübhəliyə aiddir.

MÜSTƏNTİQ
Məktubda kimliyini deyib onsuzda. Aç, görək nə göndərib bizə.

Video açıldıqda xəstəxana qarajında baş verənlərin tamamına baxırlar.

MƏHKƏMƏ TİBB MÜTƏXƏSSİSİ
Saat!

MÜSTƏNTİQ
Gördüm, gördüm...

Müstəntiq kənara çəkilib fikrə gedir.

MƏHKƏMƏ TİBB MÜTƏXƏSSİSİ
Bəs bu qız günahsızdırsa niyə gizlənir?

MÜSTƏNTİQ
Çünki videodakı şəxsdən qorunur.

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI

Xalsa bir dəfə Baş Həkimin otağına girərkən otağa balaca kamera qoyur.

İNT. XALSANIN GİZLƏNDİYİ EV

Xalsa videodan Baş Həkimin bir şkafa xüsusi yaxınlaşdığını görür. Görüntünü yaxınlaşdırıb kodu əl hərəkətlərinə görə təxmin edib qeyd edir.

EKST. XƏSTƏXANANIN HƏYƏTİ - GÜNDÜZ

Xalsa xəstəxanaya gedərkən skamyada oturub ağlayan Gülədanı görür və ona yaxınlaşır.

GÜLƏDA
(ağlamağı ancaq tutaraq)
Yoxdu. Videolarda da heç nə yoxdu.

Gülədə səssizcə ağlamağa başlayır. Xalsa onu qucaqlayır. Bir müddət belə otururlar.

GÜLƏDA (CONT'D)
(sakit tonla)
Tək bir yol qaldı...

XALSA
(narahat olur)
Ağlında nə var?

Güləda Xalsanı buraxır.

GÜLƏDA
Mənə görə narahat olmayın.

Güləda ayağa qalxıb xəstəxanaya doğru yönəlir.

GÜLƏDA (CONT'D)
Sizə də öz planınızda uğurlar.

İNT. XƏSTƏXANA - HOL - GECƏ

Xalsa Baş Həkimin otağını görəcək şəkildə gizlində durur.

XALSA
(öz özünə)
Sənin kimi biri ehtiyat üçün evdə yox ofisdə gizlədər nə varsa.

Xalsa saatına baxır. Baş həkim otaqdan çıxanda Xalsa aşağı çöküb qapının arasına əşya sıxışdırır və beləliklə qapı açarlanmır. Xalsa kameranın kor bucağından otağa daxil olur.

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI - DAVAM

Xalsa kompüteri açıb otağı çəkən kamera olub olmadığını yoxlayır.

XALSA
Əla, nə görünən nə də gizli kamerası var. Yəgin birdən özünə qarşı dönər deyə qoymayıb.

Xalsa fayllar olan şkafa yaxınlaşır.

XALSA (CONT'D)
İz qoymamaq üçün kağız işlədirsən.

Xalsa faylların şəklini çəkməyə başlayır.

İNT. XALSANIN GİZLƏNDİYİ EV

Xalsa çəkdiyi faylları oxuyur.

XALSA
Polis gəlməzdən öncə hara gizlətmişdin görən bunları?

Bir-iki fayla baxdıqdan sonra dik durub sürətlə fayları çevirir və sonra diqqətlə oxuyur.

XALSA (CONT'D)
Deməli bu qansızın nəinki korrupsiya, hətta orqan qaçaqçılığında da əli var.

Xalsa başqa bir faylı vərəqləyir və gördüyü onu məyus edir, həm də içdən qəzəbləndirir. Burada Müstəntiq haqda da yazılar var amma izləyici bunu görmür.

Xalsa öz masa arxasında dayanmadan tam diqqətlə çalışır.

İNT. XALSANIN GİZLƏNDİYİ EV - QARAJ - GÜN

Səliqəli şəkildə iş alətlərinin düzülü olduğu qarajın bir yerində qum torbası asılmışdır.

Xalsa isinmə dimanını bitirir. Kikboks üçün əlcəklərini taxır. Yavaşca qum torbasına yaxınlaşır. Dərin nəfəs alıb verir və başlayır.

FLASHBACK

İNT. AİLƏ EVİ - QARAJ - GÜN

BALACA XALSA (11) Atası məşq edərkən ona baxır. Atası durub ona maraqla baxan qızına tərəf çevrilib  baxır və gülümsəyir.

Başqa bir gün Balaca Xalsa atası yoxkən özü ondan gördüyü hərəkətləri təkrar etməyə çalışarkən Ata gəlir.

ATA
(uşaqsı oyun tonunda)
Kömək lazımdı?

BALACA XALSA
Pis olmaz.

Sonrası gün Ata Balaca Xalsaya kikboks öyrətməyə başlayır. Balaca Xalsa sevincək hərəkətləri göstərdiyi yerinə yetirməyə çalışır və dönüb atasından şərh gözləyərəcsinə baxır.

ATA
Əhsən mənim qızıma!

Ata qızını qucaqlayır. Balaca Xalsa sevinclidir.

ATA (CONT'D)
De görüm sən niyə kikboks öyrənmək istəyirsən?

BALACA XALSA
Mənə və sevdiklərimə haqsızlıq edənlərlə dərslərini vermək üçün.

Ata isti gülümsəmə ilə qızının başını oxşayır.

ATA
Sən gəl kikboksu özünə əminlik və sağlamlıq üçün öyrən. Haqsızlıq edənlərə qarşı da haqla, qanunla savaş.

BALACA XALSA
İkisini birdən etsəm olmaz?

Ata gülür.

ATA
Sənə olar.

Atası qızını yanaqlarından öpür.

ATA (CONT'D)
Yorulmamısan?

BALACA XALSA
(yerində hoppanıb düşərək)
Hələ hara?

Ata-qız məşqə davam edirlər.

END FLASHBACK.

İNT. AİLƏ EVİ - QARAJ - GÜN

Gözləri yaşla dolmuş Xalsa qum torbasını daha da tez döyməyə başlayır. Ümidin İş Yoldaşı gəlib ondan jestlərlə baxmağa icazə alandan sonra onu sakitcə kənarda seyr edir.

Xalsa hirsini boşaltdıqdan sonra dayanır. Bir müddət səssiz qalırlar. Ümidin İş Yoldaşı Xalsaya su gətirib yanında oturur.

ÜMİDİN İŞ YOLDAŞI
Qardaşın kikboksla məşqul olduğunu amma dərslərə görə hələlik kənara atdığını demişdi.

XALSA
Əsəb sakitlədirmək üçün edirəm.

ÜMİDİN İŞ YOLDAŞI
Gördüyüm qədəri ilə bu dəfə təsir etmir.

Xalsa başını sallayır və iki əli ilə başını tutur. Sonra Xalsa ayağa qalxır və qollarını açır.

XALSA
(qolları ətrafı göstərərək)
Hər tərə torlarını salıblar.

Ümidin İş Yoldaşı ayağa qalxır.

ÜMİDİN İŞ YOLDAŞI
Seçdiyin yol həm yorucu, həm də təhlükəlidir. Əgər istəyirsənsə-

XALSA
Əsla! Quyruğu qısıb qaçmaq yoxdur.

EKST. KÜÇƏ - GÜNDÜZ

Baş Redaktorun tez-tez eyni vaxtda qəhvə aldığı yerdən qayıtması göstərilir.

Xalsa Baş redaktor keçən yolda onu görməmiş kimi telefonla danışmağa başlayır.

XALSA
Deyirəm sənə, bununla hətta xaricdə belə səs gətirəcəm. Yox, yox! Heç özünü yorma. Heç nə deyən deyiləm. Məxfilik bu işdə önəmlidir.

Xalsa telefonu söndürür.

XALSA (CONT'D)
(öz-özünə amma Baş Redaktor eşidəcək qədər)
(MORE)

XALSA (CONT'D)
İşdir mənə nəsə olsa da evimdəki kompüterdə hər şey var.

EKST. BAŞ HƏKİMİN EVİ OLAN KÜÇƏ - GECƏ

Baş Həkim evindən çıxıb qaranlıq işlər görən başkəsənlərdən biri olan ADƏMə yaxınlaşıb ona nəsə deyir və oradan maşınla ayrılır. Adəm yolun digər tərəfində kölgədə gizlənən Gülədanın Baş Həkimin ardınca getdiyini görür lakin büruzə vermir.

Bir az aralıda da Xalsa kirələdiyi maşında oturmuşdur.

XALSA
Özünü təhlükəyə atırsan, ay Güləda.

Birinci elə görünür ki, Adəm Xalsanı görüb ona tərəf gəlir lakin o, arxadan gəlib Gülədanı başından vurur özündən aprarır. Adəm Gülədanı maşınının baqajına atanda Xalsa tez polisə yığır. Adəm sürüb gedir.

XALSA (CONT'D)
Alo, polis!

EKST. ATILMIŞ TÖVLƏ - GECƏ

Adəmin maşını dayanır. Hələ də özünə gəlməmiş Gülədanı baqajdan çıxarıb itələyərək tövləyə salır.

İNT. ATILMIŞ TÖVLƏ - DAVAM

Adəm Gülədanı köhnə stula bağlayır və Baş Həkimə zəng edir.

ADƏM
Dalınca bir qız düşmüşdü. İndi məndədi. Nə edək?

BAŞ HƏKİM (V.O.)
(gərgin şəkildə)
Necə, necə?!... Kimdi o?

ADƏM
Bilmirəm. Bir dəqiqə.

Adəm qəddar baxışları ilə Gülədaya doğru əyilir və qızın şəklini çəkib göndərir.

BAŞ HƏKİM (V.O)
(rahatlamış səslə)
Bu Xalsa deyil. Tibb bacısıdı.

GÜLƏDA
(Baş Həkimin səsini eşidib)
Tibb bacısı Səhər - anam haradadı?!

BAŞ HƏKİM (V.O)
(qısa pauzadan sonra)
Həə, aydındı.

ADƏM
Yaxşı indi mən nə edim?

BAŞ HƏKİM (V.O)
Həmişə etdiyini.

Adəm telefonu cavabdan razı şəkildə söndürüb cibinə qoyur və hazırlaşmağa başlayır.

Güləda öldürüləcəyini başa düşür və gözləri dolur.

GÜLƏDA
(sınıq səslə)
Heç olmasa anama nə olduğunu de. Buna haqqım var.

Adəm eşitməmiş kimi işinə davam edir.

GÜLƏDA (CONT'D)
Nə olar, de anam hardadı!

ADƏM
Eeh! Kiri görək!...

Güləda hönkürtü ilə ağlamağa başlayır.

ADƏM (CONT'D)
Yaxşı, yaxşı. Onsuz da heç kimə deyə bilməyəcəksən...

EKST. ATILMIŞ TÖVLƏ - DAVAM

Xalsanın maşını yaxınlıqda durmuşdur.

Xalsa yavaşca pəncərəyə yaxınlaşıb olanları görür.

Xalsa kənara çəkilib telefonu əlinə alır, lakin yenidən cibinə qoyub maşına minir.

İNT. ATILMIŞ TÖVLƏ - DAVAM

Adəm əlində hiss etdiyi güclə dada gəlmişdir.

ADƏM
Anan da sənin kimi yekə burun idi. Elə buradaca burnunu kəsib susdurduq.

Adəm masadan silahını götürüb Gülədaya tərəf dönəndə Xalsanın maşını tövləni yarıb Adəmi əzir. Adəm maşının altında sıxışıb qalır lakin sağdır.

Xalsa onu tutduğuna əmin olduqdan sonra maşından çıxıb Gülədanı açmağa tələsir. Adəm ağrıdan zarıldayır.

XALSA
Güləda, qorxma, mən burdayam!

GÜLƏDA
Siz buraya necə gəldiniz?

Xalsa ətrafa baxınıb bir bıçaq tapır və bərk-bərk bağlkanmış ipləri kəsməyə çalışır.

XALSA
Xəstəxananın həyətindəki halın xoşuma gəlmədi... Baş Həkimin dalınca getdiyini görüb səni izlədim ki, kənara çəkib danışım.

Xalsa ipləri kəsib Gülədanı azad edir. Güləda onu qucaqlayır.

GÜLƏDA
Şərəfsizlər, anamı burada-

XALSA
(başını sığallayaraq)
Sakit ol.

Güləda yerə atıb ətrafa baxınır.

GÜLƏDA
Anacan! Haradasan, ay ana!

Xalsa Gülədanın çiyinlərindən tutub silkələyir.

XALSA
Özünə gəl!

GÜLƏDA
Qansızlar! Axı o bunu haqq etmirdi!

Xalsa Gülədanı bərk-bərk qucaqlayır.

XALSA
Haqlısan.

Çöldən maşın səsi gəlir. Xalsa pəncərədən polis maşını olduğunu görür. İçindən Müstəntiq çıxanda Xalsa təlaşlanır. Güləda Xalsanın təlaşını hiss edib özünü ələ almağa çalışır.

GÜLƏDA
Nə olub?

XALSA
İndi mənə inanmağını xahiş edirəm.

Güləda başı ilə təsdiq edir.

Xalsa və Güləda arxadan çıxıb gedirlər.

Müstəntiq içəri girir. Ağrılar içində zarıldamağa davam edən Adəmi görüb yavaşca yaxınlaşır.

MÜSTƏNTİQ
(rahat və soyuqqanlı)
Nədi? Axır ki, payını aldın.

ADƏM
Çərənləməkdənsə, kömək et, it!

MÜSTƏNTİQ
(soyuqqanlılığını saxlayaraq)
Əlbəttə.

Müstəntiq yerdə olan yekə dəmir parçasını götürüb Adəmin başına vurur. Adəmin öldüyündən əmin olduqdan sonra. Maşının nömrəsini götürür.

EKST. YOL KƏNARI - DAVAM

Xalsa Gülədaya dayaq olur və birlikdə yol kənarına gəlirlər.

Xalsa telefonundan nömrəni çıxardır, əl izlərini silib nömrəni, sonra da telefonu sındırıb atır.

Yoldan keçən bir XANIM SÜRÜCÜ onları görüb saxlayır.

XANIM SÜRÜCÜ
Kömək lazımdı?

XALSA
Bəli!

Xalsa Gülədaya maşına minməyə kömək edir və özü də minir.

XALSA (CONT'D)
Çox sağ olun!

Xanım Sürücü Gülədanın halsızlığını hiss edir.

XALSA (CONT'D)
Bizi bir xəstəxanda düşürə bilərdinizmi?

XANIM SÜRÜCÜ
Əlbəttə.

İNT. XALSANIN GİZLƏNDİYİ EV - GÜNDÜZ

Ümidin İş Yoldaşı narahat şəkildə Xalsanı gözləməkdədir. Oturduğu yerdə ayağını oynadaraq saatına baxır. Telefonu ilə Xalsaya yığır. Telefonda xəttdən kənar olduğunu deyən səs yazma eşidilir. Uf ataraq ayağa qalxır və otaqda gəzməyə başlayır.

ÜMİDİN İŞ YOLDAŞI
Xeyir ola.

Qapı açılır və içəri Xalsa Güləda ilə daxil olur. Güləda sakitləşdiricilərin təsirindən yuxulu kimi gücsüz şəkildə Xalsaya yaslanmışdır.

ÜMİDİN İŞ YOLDAŞI (CONT'D)
Hardasam, ay Xa-?!
(Gülədanı görür)
Nə olub belə? Bu xanım kimdir?

Ümidin İş Yoldaşı Xalsaya Gülədanı uzandırmağa kömək edir.

XALSA
Sənə dediyim o tibb bacısıdır.

ÜMİDİN İŞ YOLDAŞI
Kənar birini gətirmək sənin üçün təhlükəlidir axı.

Xalsa özünü divana atır.

Ümidin İş Yoldaşı Gülədaya diqqətlə baxır elə bil necə insan olduğunu deşifrə etməyə çalışır.

ÜMİDİN İŞ YOLDAŞI (CONT'D)
Yaxşı bəs zavallıya nə olub?

XALSA
Bir az özümə gəlim, hər şeyi danışacam.

FLASHBACK:

İNT. GÜLƏDANIN AİLƏSİNİN EVİ - GÜNDÜZ

Günəş işığı ilə dolu bir mətbəxə keçid edirik. Təxminən 8 yaşında olan BALACA GÜLƏDA taburet üzərində oturub, əyri-üyrü çəkilmiş günəş, ev və çöp-şəkilli ailə təsviri olan rəsmi əlində tutur. GÜLƏDANIN ANASI, tibb bacısı formasıda və uzun bir günün ardından bir az dağınıq saçları ilə, yanında oturur.

BALACA GÜLƏDA
(məyus şəkildə)
Heç də gəzəng alınmadı.
Başqalarının rəsmləri daha gözəldi.

Anası kağızı onun əlindən yumşaq bir şəkildə götürüb, sanki dünyanın ən dəyərli sənət əsərinə baxırmış kimi diqqətlə incələyir. Barmağı ilə rəsmdəki günəşi göstərir.

GÜLƏDANIN ANASI
Bilirsən niyə burada günəş parlayır?

BALACA GÜLƏDA
Çünki onu ora mən qoydum.

Anası isti bir təbəssümlə onun üzündən düşmüş bir saç telini geriyə çəkir. Barmağındakı rubin qaşlı üzük görünür.

GÜLƏDANIN ANASI
Düzdür. Sən sadəcə günəşi əlavə etməklə bu dünyanı daha parlaq etdin. İnsanlardan gözlənilən də budur—bacardıqları qədər işıq gətirmək. Hər şey mükəmməl olmasa belə. Üstəlik, günəş dözümlülüyü də təmsil edir—

Gənc qız yenidən hıçqırır, amma bu dəfə göz yaşları dayanır, rəsmini anasının əlində seyr edir.

GÜLƏDANIN ANASI (CONT'D)
—bu da o deməkdir ki, dünya qaranlıq görünsə belə, unutma—öz günəşin içindədir. Həmişə oradadır. Sadəcə onu tapmalısan.

Anası qızının alnından öpür və ayağa qalxır. Rəsmi ürək formalı maqnitlə soyuducunun üstünə yapışdırır.

END FLASHBACK

İNT. XALSANIN GİZLƏNDİYİ EV - YATAQ OTAĞI - GECƏ

Gecə vaxtıdır. Sakitlikdir. Güləda Xalsanın yatağında uzanmışdır.

GÜLƏDA
(yuxudan diksinərək oyanaraq)
Ana!

Çarpayının yanındakı divanda qıvrılıb uzanmış Xalsa oyanır.

Güləda yerində oturub ağlarkən Xalsa yanında oturub ona təsəlli verir. Bir müddət səssiz qalırlar.

GÜLƏDA (CONT'D)
O, həmişə mənə deyirdi ki, öz işığımı tapım. Nə qədər qaranlıq olsa da, o günəş içimdə olduğu üçün hər şeyin öhdəsindən gələ biləcəyim deyirdi.

Xalsa onun əlindən möhkəm tutur.

XALSA
Və sən tapmısan. Sən bunun da öhdəsindən gələcəksən.

Güləda göz yaşlarını silir, zəif bir təbəssüm üzündə görünür.

XALSA (CONT'D)
Su?

GÜLƏDA
Zəhmət olmasa.

Xalsa su gətimrək üçün gedir.

GÜLƏDA (CONT'D)
(pıçıltı ilə) )
Çox sağ ol, anacan.

İNT. XALSANIN GİZLƏNDİYİ EV - OTURAQ OTAĞI - GECƏ

Otaq zəif işiqlıdır. Ən aydınladıcı işıqlar yuvarlaq stola yönəlmişdir. Xalsa, Ümidin İş Yoldaşı və Güləda stolun ətrafında fikirli oturublar. Stolda qələm-kağızlar və xəritə var.

GÜLƏDA
Nə xəbərlərdə, nə də qəzetlərdə heç bir şey tapmadığımda Xsalsanın haqlı olduğuna tamamilə əmin oldum.

ÜMİDİN İŞ YOLDAŞI
(xəritədə göstərərək)
Əsasən bu ərazinin ətrafında dövrə gəzir. O, gizləndiyini bilir, Güləda. Sübut üçün onu bir oyunla tələyə salmaq lazımdı. Başqa yol görmürəm.

XALSA
Demək istəyirsən… Gülədanı onun önünə yem kimi çıxarıb qızı təhlükəyə ataq.

GÜLƏDA
Mənə görə narahat olmayın. Düşünürəm ki, bunu edə bilərəm.

ÜMİDİN İŞ YOLDAŞI
Texnikanı mənə buraxın. Gizli kameraları və səs yazıcıları quraşdıracağam. Hər bir hərəkəti bizdə olacaq.
(Gülədaya)
Sizdən bizə lazım olan tək şey cəsarət və zamanlamadır.

XALSA
Biz yaxında olacağıq. Təhlükə ananında sizi darda qoymarıq.

GÜLƏDA
(səmimi gülümsəmə ilə)
Mən sizdən əminəm.

İNT. ÖZƏL XƏSTƏXANA - XƏSTƏ OTAĞI - GÜNDÜZ

Xalsa Ümidə baş çəkməyə gəlmişdir. Səssizcə kənarda ona baxır. Sonra yavaşca yanına gəlib oyanmasını gözlərcəsinə onun başını və əlini sığallayır. Xalsa gözlərini qardaşından ayırmadan doğrulur və gözləri dolur. Xalsa qapıya tərəf dönən kimi kədərli baxışları qərarlı baxışlar əvəz edir.

EKST. TƏRK EDİLMİŞ ANBAR BÖLGƏSİ - GECƏ

Ümidin İş Yoldaşı künclərdə kameralar və mikrofonları quraşdırır.

İNT. TƏRK EDİLMİŞ ANBARIN İÇİ - DAVAM

Anbarın içində biri gizlicə yaşayırmış kimi görüntü verilmişdir. Yataq, stol-stul, isidici və qida ləvəzımatları vardır.

Xalsa Güləda ilə başlamazdan öncə son dəfə danışır.

XALSA
Unutmayın, o, sizdən çaşqınlıq keçirməyinizi gözləyəcək. Sakit olun və bizə etibar edin.

Ümidin İş Yoldaşı onlar tərəfə gəlib hər şeyin hazır olduğuna işarət edir.

Xalsa dostyana Gülədanın çiynini pat-patlayıb gizlənmyə gedir.

Güləda dərin nəfəs alıb verir.

EKST. TƏRK EDİLMİŞ ANBAR BÖLGƏSİ - DAVAM

Müstəntiqin maşını oraya yaxlaşıb saxlayanda atmosfer gərilir.

Müstəntiq ətrafa baxınaraq maşından enir və əlcəklərini taxır.

Xalsa və Ümidin İş Yoldaşı onu kameralardında görməktədirlər.

Müstəntiq anbara doğru gedərkən əlcəklərini düzəldir.

İNT. TƏRK EDİLMİŞ ANBARIN İÇİ - DAVAM

Müstəntiq ərtafdakı əşyalara baxaraq yavaşca ətrafda gəzinir. Doğru yerə gəldiyini anlayıb daha da həvəslənir.

MÜSTƏNTİQ
(qışqıraraq)
Bilirəm ki, buradasan! Sonsuza qədər gizlənə bilməzsən!

Güləda irəli addımlayır, əlləri titrəyir, amma üzündə qətiyyət var.

Müstəntiq onun tərəfə irəliləyir, üzündə narahatedici bir təbəssüm meydana çıxır. O, cibindən ölümcül maddə ilə dolu bir şpris çıxarır.

MÜSTƏNTİQ (CONT'D)
(soyuq bir şəkildə)
Bəxtin gətirib. Sürətli və təmiz - ən sevdiyimdi.

Birdən, Xalsa üzü maskalı şəkildə gizləndiyi yerdən çıxır, kamerasını qaldırır.

XALSA
(qışqıraraq)

XALSA (CONT'D)
Şprisi yerə qoy, Müstəntiq.

MÜSTƏNTİQ
(istehza edərək)
Jurnalist? Nə gülməli.

Ümidin İş Yoldaşı başqa bir bucaqdan çıxır, başqa bir kamera da əlindədir.

ÜMİDİN İŞ YOLDAŞI
(lağ edərək)
Gülümsə, Müstəntiq. Sən viral olacaqsan.

Müstəntiq Gülədanın üstünə şpris ilə hücum edir, amma Xalsa təhlükəsizlik alarmını işə salaraq onu çaşdırır. Bu isə Gülədanın geri çəkilməsinə imkan yaradır.

Xalsa və Ümidin İş Yoldaşı çəkilişə davam edirlər.

ÜMİDİN İŞ YOLDAŞI (CONT'D)
(kameraya)
Müstəntiq tərəfindən qəsdən qətl cəhdi ilə bağlı sübutu lentə aldıq.

İNT. REDAKSİYA - ÜMUMİ OFİS

Redaksiyada adi bir gündür. Heç nə olmamış kimi Xalsa oyuna davam etməkdədir.

Xalsa gəlib bir bucağa keçir və QƏZETİN QONAĞI olan orta yaşlı xanıma qaş göz etdikdən sonra ofisin ortasında huşunu itirib yerə yıxılır.

İşçilər təcili yardım çağırırlar.

Baş Redaktor isə hadisələri müşahidə edir. Qəzetin Qonağı baş redaktorun qolundan tutur.

QƏZETİN QONAĞI
(bağırır)
Onu tək buraxmayın.

BAŞ REDAKTOR
Bir dəqiqə, xanım-

QƏZETİN QONAĞI
Nə durmusunuz?!

EKST. REDAKSİYANIN ÖNÜ - DAVAM

Baş Redaktoru Xalsa ilə təcili yardım maşınına mindirib aparırlar.

İNT. ÖZƏL XƏSTƏXA - HOL

Baş redaktor holda narahat şəkildə ora-bura gedərkən ona orta yaşlarda bir HƏKİM yaxınlaşır.

HƏKİM
Təəssüflər olsun ki, pasiyenti həyatda saxlamaq mümkün olmadı.

İNT. KƏLƏK ÜÇÜN KİRƏLƏNMİŞ EV - GECƏ

Baş Redaktor Xatirə olaraq bildiyi Xalsanın evinə girir.

Əsas faylı, başqa zəif bir işlə əvəzləyir.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI - GECƏ

Baş Redaktor böyük bir iştaha və eyni zamanda həyəcanla faylları öz kompüterində açır.

Kompüterin ekranında Baş Həkimin şəkli və onun haqqında məlumatlar gəlir. Baş Redaktor mətni canfəşanlıqla oxumağa başlayır. Oxuduqca gözləri daha da bərəlir və ağzı açıq qalır. Bir anlıq durqunluqdan sonra yerində diksinir və əllərini şappıldadır.

BAŞ REDAKTOR
Bu ki sensasiyadır!

Baş Redaktor əlləri ilə stol vuraraq coşqu ilə nağara çalar kimi edir.

CUT TO:

İNT. RƏSMİ ORQANLAR

MONTAGE:

1. Baş Redaktor, Xalsanın topladığı sübutlardan istifadə edərək rəsmi bir araşdırma aparılması üçün hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edir.

2. Baş Həkim haqqında iş açılır.

END MONATGE.

İNT. MƏTBƏƏ - GÜN

Çap maşını Baş Redaktorun adına yazdığı Baş Həkimlə bağlı yeni məqalənin başda olduğu qəzeti çap etməkdədir. Qəzetin üzərində - "Baş Redaktordan xüsusi məqalə : Baş Həkimin qanlı oyunları".

CUT TO:

İNT. XƏSTƏXANA - BAŞ HƏKİMİN OTAĞI

MONTAGE:

1. Hər tərəf RƏSMİ ORQAN İŞÇİLƏRİ tərəfindən yoxlanır.

2. Baş Həkim isə biçarə kənarda durub olanları müşahidə edir.

END MONTAGE.

İNT. ATILMIŞ TÖVLƏ - GÜN

Polis işçiləri və Məhkəmə Tİbb Mütəxəssisləri içərini və ərazini yoxlayır. QAZICILAR ehmalla işləyir. QAZICI alətlə torpağı götürəndə insan barmağı üzə çıxır.

QAZICI

Burada!

Məhkəmə Tibb Mütəxəssislərindən biri diz çöküb torpağı ehmalca təmizləyir. İlk öncə Gülədanın anasının rubin qaşlı üzüklü əli üzə çıxır sonra da bütov cəsəd yavaş-yavaş üzə çıxarılır. Gülədanın Anasının cəsədi taplır.

İNT. MƏHKƏMƏ ZALI

Məhkəmə Baş Həkimi günahkar elan edir.

Məhkəmə işini izləyənlər arasında Baş Redaktor, arxa sıralarda da Xalsa, Ümidin İş Yoldaşı və Tibb Bacısı oturmaqdadırlar.

ÜMİDİN İŞ YOLDAŞI
Birinin əli ilə o birini yıxdın.
Əhsən sənə.

Xalsa gülümsəyir.

Tibb Bacısı sevinclə qarlışıq kədərlə göz yaşlarını silib oradan gedir.

Ümidin İş Yoldaşı Xalsaya gülmüsüyürək başını tərpədir və qucaqlaşırlar.

EKST. MƏHƏMƏ BİNASININ ÖNÜ - GÜN

Güləda Xalsaya yaxınlaşır və onu bərk-bərk qucaqlayır. Güledanın barmağında anasının rubin qaşlı üzüyü vardır.

İkisinin də gözləri dolur. Xalsa gülümsəyib göz yaşlarını siləndə Gülədanın da kefi düzəlir.

GÜLƏDA
Hər şeyə görə təşəkkülər, Xalsa.
Sən olmasan nə anamı tapa bilərdim,
nə də gerçəyi sübut edə.

XALSA
Əli qanlı Müstəntiqi sənsiz tuta
bilməzdik.

GÜLƏDA
O işdə də öz xeyrim vardı.

Qızlar gülürlər. Güləda Xalsanın əlindən tutur.

GÜLƏDA (CONT'D)
(ürəkdən və ciddi tonda)
Sənə bir can borcum var.

XALSA
Elə demə.

GÜLƏDA
Elədir ki, var. Nədəsə kömək edə
bilsəm canla başla hazıram.

EKST. REDAKSİYANIN ÖNÜ - GÜNDÜZ

Hələ də Xatirə personasında olan Xalsa şuh şəkildə duruşla Redaksiya binasını seyr edir və əmin addımlarla binaya daxil olur.

İNT. REDAKSİYA - ÜMUMİ OFİS - DAVAM

Baş Redaktor işçilərlə söhbət edərkən Xalsa içəri girir. Hamı təəcüüb içindədir.

Xalsanı görən kimi Baş Redaktorun dili tutulur, əli-ayağı dolaşır. O yıxılar kimi olub bir neçə addım arxaya çəkilir.

İŞ YOLDAŞI
Bu ki, Xatirə Ümiddi!

XALSA
Baş Redoktor oğrudur! Sonuncu məqalə tamami ilə mənə aiddir!

Xalsa əlindəki fləşkartı yuxarı qaldırırb hamının görə biləcəyi şəkildə tutur.

XALSA (CONT'D)
Bu da sübütü.

Ümidin İş Yoldaşı ofisdəki iri ekranı açır. Videoda Baş Redaktorun Xalsanın plan üçün kirələdiyi evə girib kompüterdə işləməsi görünür.

İNT. REDAKSİYA - BAŞ REDAKTORUN OTAĞI

Bu dəfə də Rəsmi Orqan İşçiləri Baş Redaktorun otağını axtarırlar.

Baş Redaktor da nəsə demək istəyərək onları dayandırmağa çalışır lakin özünü saxlayır. Baş Redaktor dözə bilməyib başını tutub otağı tərk edir.

İNT. MƏHKƏMƏ ZALI

Məhkəmə Baş Redaktoru günahkar elan edir.

Yenə də dinləyicilər arasında Xalsa və Ümidin İş Yoldaşı vardır. Onlar sevincəkdirlər. Ümidin İş Yoldaşı Xalsanı təbrik edərək kürəyindən yüngülcə bir neçə dəfə vurur.

INT. MƏHKƏMƏ HOLU

Xalsa və Ümidin İş Yoldaşı hola çıxırlar. Xalsa onunla üz-üzə olan ədalət heykəlinə baxıb gülümsəyir.

ÜMİDİN İŞ YOLDAŞI
Hələ də inana bilmirəm! Ümidin işi də açıldı! Xalsa, sən bunu etdin!

XALSA
Sənə də təşəkkür etməliyəm.

ÜMİDİN İŞ YOLDAŞI
(isti gülümsəmə ilə)
Mən nə etdim ki.

Xalsaya zəng əlir. Xalsa nömrəni görən kimi tez-tələsik açır.

XALSA
Necə?... Elə indi!

Xasla qaçır.

ÜMİDİN İŞ YOLDAŞI
(onun dalınca qaçaraq)
Xalsa! Hara belə?!

Ümdin İş Yoldaşı Xalsaya çatmağa çalışır.

İNT. ÖZƏL XƏSTƏXANA - XƏSTƏ OTAĞI - AXŞAM ÜSTÜ

Sakit və hüzurlu atmosfer hakimdir.

Otağın çölündən otağa doğru qaçanların ayaq səsələri gəlir.

Xalsa zireh şəkildə qapını açıb içəri girir.

XALSA
Ümid!

Ümid həfif gülümsəyərək yavaşca qollarını açır.

Xalsa qolları havada qardaşına doğru qaçıb onu qucaqlayır.

Otağın çölündə qapı eşiyində duran Ümidin İş Yoldaşı hər şeyin yaxşı olduğunu görüb üzündə təbəssümlə qapını yavaşca örtür.

Otaq kədər, sevinc və bu ikisi arasındakı hisslərin harmanında sükutla dolur.

ÜMİD
Bağışla, Xalsa. Böyük qardaşın olaraq daha ehtiyatlı olmalı idim. Yanında olmalı idim.

XALSA
Yox, yox, elə demə. Oyandın ki, demək yanımdasan. Həkimlər deyir, yaxşı olacaqsan. Sağalacaqsan.

ÜMİD
Mən komada ikən sən nə etdin?

Xalsa, üzündə xəyali bir gülümsəmə sanki hər şeyi yenidən xatırlayır.

XALSA
(gülümsəyərək)
Nələr-nələr etdim.

Ümid maraqla ona baxır.

XALSA (CONT'D)
Narahat olma, hər şeyi danışacam.

İNT. UNİVERSİTET - HÜQUQ FAKÜLTƏSİ - HOL - GÜNDÜZ

Xalsa əmin addımlarla getməkdədir. Professoru onu sevincək şəkildə qarşılayır.

PROFESSOR
Xalsa! Qayıtdığını görmək məni hədsiz dərəcədə sevindirdi.

XALSA
Əksik olmayın! Düzünü desəm son hadisələr zamanı hüquq fakültəsindən ayrılmağı düşünürdüm. Lakin artıq daha da çox çalışıb haqlının dayağı olacağına qərar vermişəm.

Professor ona qürurla baxaraq başını təsdiq olaraq həfifcə sallayır.

Pis Professor Xalsanı görcək kənarə keçib Xalsa və Professoru güdür.

XALSA (CONT'D)
Əlavətən də onun kimilərinin acığına.

Pis Porfessor onların ondan danışdığını anlayıb oranı tərk edir. Xalsa və Professor gülürlər.

EKST. PARK - SƏHƏR

Fərah və Günəşli havadır.

Xalsa və Ümid bir-birlərinə sataşa-sataşa dondurma alılar. Sonra da söhbət edərək yavaş-yavaş hər zaman altında oturduqları ağaca doğru gedirlər.

FADE OUT.